Ə.Q.QASIMOV
*t.e.n.*
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFI (XX əsrin 70-80-ci illəri)

XX yüzilliyin 70-80-ci illəri Azərbaycan tarixində öz əhəmiyytinə görə mühüm bir dövrü təşkil edir. Bu qısa tarixi zaman kəsiyində Azərbaycan xalqı böyük tərəqqi dövrü yaşamış, ictimai, iqtisadi, mədəni həyatda əzəmətli uğurlara nail olmuşdur. Bu gün müstəqil Azərbaycanımızın əldə etdiyi nailiyyətlərin təməlini, həmin dövrdə yaradılmış iqtisadi və mənəvi potensial təşkil edir.

XX əsrin 60-cı illərində Azərbaycanın iqtisadi və sosial inkişafında müəyyən nailiyyətlərin olmasına baxmayaraq, iqtisadiyyata rəhbərlikdə ciddi səhvlərə və subyektivizmə yol verildiyindən respublikanın iqtisadiyyatı ləng artırdı. Əslində 60-cı illərin sonunda Azərbaycan iqtisadiyyatı bütün sahələrdə dərin böhran, tənəzzül ərəfəsində idi. Bu isə xalqın güzaranına, onun mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərirdi.

Respublika iqtisadiyyatında mövcud olan neqativ tendensiyaların qısa müddətdə aradan qaldırılması, iqtisadi sabitləşmə əsasında dinamik inkişafın təmin olunması, köklü struktur dəyişikliklərinin aparılması, sosial-mənəvi iqlimin yaxşılaşdırılması üçün zəruri addımlar atılması tələb olunurdu.

Qədim və zəngin tarixə malik Naxçıvan Muxtar Respublikasının mürəkkəb və çətin inkişafı da ayrılmaz tərkib hissəsi olduğu Azərbaycanın inkişafı ilə bağlı olmuşdu. Naxçıvan MR-in 1970-ci ilə qədərki inkişafı çox ziddiyyətli xarakter daşımış, sənaye məhsulunun həcmi cüzi artmış, inkişafı kənd təsərrüfatından asılı olan yüngül, yeyinti sənayesi sahələri əsasən durğunluq dövrünü yaşamışdır. Ümumiyyətlə 60-cı illərin II yarısınadək olan təqribən 40 il ərzində Naxçıvanın iqtisadiyyatı Azərbaycanın bir sıra başqa bölgələrinə nisbətən aşağı inkişaf səviyyəsində olmuş, sənaye məhsulunun artım surətinə görə o keçmiş SSRİ-də muxtar respublikalar arasında sonuncu yerlərdən birini tutmuşdur. Muxtar respublika iqtisadiyyatının ləng inkişaf etməsinin bir sıra obyektiv və subyektiv səbəbləri var idi.

Mərkəzi hakimiyyət Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafına daha çox diqqət yetirir, təbii ehtiyatlarla zəngin olan Naxçıvan MR-də isə məhsuldar qüvvələrin inkişafını bilərəkdən aşağı səviyyədə saxlayırdı. Naxçıvanı iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək və bu yolla azərbaycanlıları bu torpaqlardan didərgin salmaq siyasəti yeridilirdi. Buna görə də əvvəllər olduğu kimi 50-60-cı illərdə də erməni millətçiləri muxtar respublikada iqtisadi inkişafın qarşısını almaq üçün fitnəkar fəaliyyətlərini davam etdirir və bu məsələdə sovet rəhbərliyində kök salmış havadarlarına arxalanırdılar.

Digər səbəblərdən biri də 1969-cu ilə qədər Azərbaycan rəhbərliyinin Naxçıvanın inkişafına laqeydliyi ilə bağlı idi. Möhtərəm Heydər Əliyev məhz bunu nəzərdə tutaraq göstərirdi ki, Naxçıvana ögey münasibət olubdur. Ona görə də açıq danışım. Naxçıvanda əsas quruculuq işi, sənayesinin, kənd təsərrüfatının inkişafı – bunların hamısı 1970-ci ildən başlayaraq gedibdir. Gedin Naxçıvana sayın əgər keçmiş xanların tikdikləri binaları, yaxud da tarixi abidələri istisna etsək, 1970-ci ilə qədər və 1970-ci ildən sonra Naxçıvanda nə tikilib, nə yaradılıbdır. Bu təkcə Naxçıvanda deyil, bunu Azərbaycanın hər yerinə aid etmək olar [1, 1998, 17 yanvar].

Beləliklə, neqativ proseslərin, iqtisadi və sosial tənəzzülün qarşısını almaq üçün Azərbaycan rəhbərliyində köklü kadr dəyişikliyinə zərurət yaranmışdı. Qeyri standart qərarlar qəbul etməyə, vəziyyəti sabitləşdirmək və radikal dəyişikliklər etmək iqtidarında olan bacarıqlı işgüzar və nüfuzlu rəhbərə ehtiyac duyulurdu. Nəhayət, 1969-cu il iyulun 14-də Azərbaycan xalqı Heydər Əlirza oğlu Əliyevin şəxsində belə bir rəhbərə malik oldu [4, v.45]. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə irəli çəkilməsi ilə respublika iqtisadi və ictimai həyatının bütün sahələrində əsil tərəqqi və çiçəklənmə dövrü başlandı.

Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda respublika iqtisadiyyatında yaranmış böhranlı vəziyyətin dərin elmi təhlili verildi. İqtisadi və sosial inkişafın əsas vəzifələri və onların həlli yolları müəyyənləşdirildi. İqtisadi və sosial böhrandan qısa zamanda xilas olmaq və əsaslı dönüş yaratmaq üçün konkret tədbirlər planı işlənib hazırlandı.

Heydər Əliyevin ilk dəfə rəhbərliyi ilə keçən Azərbaycan KP-nin XXVIII qurultayında iqtisadiyyatın mövcud durumu təhlil edildi, onun geridə qalma səbəbləri araşdırıldı və xalq təsərrüfatının bütün sahələrinin intensiv inkişaf etdirilməsinin konkret proqramı müəyyənləşdirildi.

Heydər Əliyev eyni zamanda ittifaq rəhbərliyindəki nüfuzundan və şəxsi əlaqələrindən istifadə edərək respublika iqtisadiyyatının müxtəlif sahələrinin inkişafı üçün beş mühüm qərarın qəbul edilməsinəvə böyük həcmdə vəsaitlərin ayrılmasına nail oldu.

Heydər Əliyevin müdrik rəhbərliyi altında həyata keçirilən ardıcıl və məqsədyönlü iqtisadi və sosial siyasət nəticəsində 70-ci illərdə uzun müddətli geriliyə son qoyuldu, təsərrüfatın bütün sahələrində sabit və yüksək sürətli, dinamik artım əldə edildi. Bu illərdə sənaye istehsalı 2,2 dəfə artmış, sənaye istehsalının orta illik artım sürəti 8,2 faiz təşkil etmişdi ki, bu da 1961-1970-ci illərlə müqayisədə 19 faiz çox idi [2, 22-23]. 1971-1980-ci illərdə əmək məhsuldarlığı 1,7 dəfə artmış, məhsul artımının 75 faizi bunun hesabına əldə edilmişdi. 1980-ci ildə isə bu rəqəm 81 faiz təşkil etmişdi [2, 40-41].

Heydər Əliyevin Azərbaycanın siyasi rəhbəri seçilməsi ilə Naxçıvan MR-in iqtisadi inkişafında da ciddi dönüş baş verdi. İlk aylardan başlayaraq Azərbaycanın bütün regionları kimi muxtar respublikanın da siyasi, ictimai, mədəni və iqtisadi tərəqqisinin əsası qoyuldu. İqtisadiyyatın inkişafı üçün əsaslı vəsait qoyuluşu xeyli artırıldı. Əgər səkkizinci beşilliyin üç ilində Naxçıvan iqtisadiyyatına cəmi 9,1 mln., manat kapital qoyulmuşsa, Heydər Əliyevin rəhbərliyinin ilk iki ilində – 1969-1970-ci illərdə bu rəqəm 105 milyon manata çatdırıldı. Sənaye məhsulunun 1969-1970-ci ildə artımı 83 faiz olmaqla əvvəlki üç ildəkindən 4,1 dəfə çoxaldı [6, 31].

Azərbaycan rəhbərliyinin göstərişlərinə uyğun olaraq doqquzuncu beşillikdə Naxçıvan MR xalq təsərrüfatının inkişaf planı işlənib hazırlandı. 1970-ci illərin ilk üç ili ərzində Naxçıvan MR-də bir sıra yeni sənaye müəssisələri, o cümlədən alminium qablar zavodu. Dəmir-beton məmulatları zavodunun birinci növbəsi, iki şərab zavodu və s. işə salındı. Doqquzuncu beşilliyin ilk üç ili ərzində 1968-1970-ci illərdəkindən 1,5 dəfə çox sənaye məhsulu, o cümlədən 1,6 dəfə çox xalq istehlak malları istehsal edildi [5, 1974, 27 fevral].

Lakin bununla yanaşı sənayenin, nəqliyyatın və əsaslı tikintinin inkişafı sahəsində ciddi nöqsanlar var idi. Muxtar respublikada bir sıra sənaye müəssisələrində (elektrotexnika zavodu, Parağaçay filiz mədəni, Sirab mineral sular zavodu, avtomobil təmir zavodu və b.) plan tapşırıqları yerinə yetirilmir, bəzi müəssisələrdə isə quraşdırılmış avadanlığın gücündən 70-80 faiz istifadə edilirdi. Xalq istehakı malları istehsalında da ciddi nöqsanlar mövcud idi. Sənaye müəssisələrində məhsulun çeşidini genişləndirmək, onun keyfiyyətini yüksəltmək sahəsində lazımı iş aparılmırdı. Muxtar respublikanın

yerli xammal ehtiyatlarından kifayət qədər istifadə olunmurdu. Naxçıvan MR-də mövcud olan imkanlardan və ehtiyat mənbələrindən tam istifadə edilmədiyini belə bir fakt da sübut edirdi ki, doqquzuncu beşilliyin üç il ərzində muxtar respublika üzrə sənaye istehsalının və xüsusilə kənd təsərrüfatı istehsalının artım sürəti bütövlükdə Azərbaycan SSR üzrə olduğundan xeyli aşağı idi. Muxtar respublika rəhbərliyi bir sıra zavod və fabriklərdə geriliyin aradan qaldırılmasında lazımi diqqət yetirmir, yeni müəssisələrin vaxtında tikilib istifadəyə verilməsinə, Naxçıvanın təbii ehtiyatlarının kəşf olunması və istifadə edilməsi məsələlərinə kifayət qədər diqqət və əzmkarlıq göstərmirdi. Əsas fondların işə salınması da yarıtmaz vəziyyətdə idi. 1971-1973-cü illərdə muxtar respublika zəhmətkeşlərinə nəzərdə tutulduğundan 30 min kvadratmetr az mənzil sahəsi verilmişdir [5, 1974, 27 fevral].

Muxtar respublikanın iqtisadi inkişafı sahəsində mövcud vəziyyət Heydər Əliyevi daim narahat etdiyindən bu vəziyyəti dəyişdirmək üçün bir sıra əməli addımlar atmalı oldu. Bu baxımdan muxtar respublikanın iqtisadi inkişafı üçün Azərbaycan KP MK və respublika hökumətinin «Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 8 yanvar 1974-cü il tarixli qərarının mühüm əhəmiyyəti oldu [3, v.187-200]. Bu qərar Heydər Əliyevin muxtar respublikaya, onun sənayesinin, kənd təsərrüfatının inkişafına, naxçıvanlıların rifahının yüksəlməsinə göstərdiyi diqqətin birbaşa təzahürü idi.

Qərarda muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrində hansı işlərin görülməsi əksini tapmış, Azərbaycan nazirlikləri və baş idarələri qarşısında konkret vəzifələr, onların yerinə yetirilmə müddəti dəqiq müəyyənləşdirilmişdir [3, v.187-201]. Naxçıvan MR-in gələcək inkişafında mühüm rol oynayacaq bu qərarda öz əksini tapmış müddəaların həyata keçirilməsinə Heydər Əliyev şəxsən nəzarət edirdi. Bunun nəticəsi olaraq müəyyən edilmiş bütün vəzifələr vaxtında yerinə yetirilmişdi.

Bu qərarın qəbulundan bir ay sonra Heydər Əliyev Naxçıvan Vilayət Partiya Komitəsinin XXX konfransında şəxsən iştirak edərək muxtar respublikada siyasi, iqtisadi vəziyyətin, ideoloji işin dərin elmi-siyasi təhlilini verdi, mövcud nöqsanları açıq şəkildə göstərdi və onların həlli yollarını müəyyənləşdirdi. Muxtar respublika rəhbərliyinin iş metodlarını kəskin tənqid edən Heydər Əliyev konkret faktlara əsaslanaraq iqtisadiyyatın inkişaf sürətini artırmaq, ideoloji işi gücləndirmək, kadrların məsuliyyətini yüksəltmək sahəsində Azərbaycan rəhbərliyinin həyata keçirdiyi tədbirlərin, bütün mənfi hallara qarşı mübarizə ruhunun Naxçıvan VPK rəhbərliyinin fəaliyyətində lazımınca öz əksini tapmadığını, bəzi partiya və sovet rəhbərlərinin sözlərində və işlərində qətiyyət, prinsipiallıq və səmimiliyin hiss olunmadığını açıq şəkildə bəyan etmişdir [7, v.105].

70-ci illərdə muxtar respublikada tikinti sənayesinin inkişafına xüsusi diqqət yetirilmiş və bu sahədə bir sıra uğurları əldə ounmuşdur. Belə ki, 1981-ci ildə 30,7 min kub metr dəmir beton məmulatı, 31,1 min kubmetr əmtəə betonu, 53,2 min kubmetr travertin bloku, 2,3 mln ədəd kərpic və s. istehsal edilmişdi [12, 28]. Bütün bunlar Heydər Əliyevin bu sahə ilə gündəlik məşğul olması sayəsində əldə edilmişdir.1970-ci illərin əvvəllərinədək geniş potensiala malik bu sahə demək olar ki, başlı-başına buraxılmışdı. O,Naxçıvan VPK XXX konfransında çıxış edərək qeyd etmişdir ki,hamı bilir ki, Naxçıvan faydalı qazıntılarla zəngindir, lakin nə vaxta qədər bununla öyünəcəklər, bəs nə zaman faydalı qazıntılardan respublika zəhmətkeşlərinin xeyri üçün istifadə olunacaqdır [11, 1974, 7 fevral].

Göstərilən dövrdə Naxçıvan MR-in sənayesində elmi-texniki tərəqqini müəyyən edən sahələrin daha sürətlə inkişaf etdirilməsinə diqqət artırıldı. Nəticədə maşınqayırma, dağ-mədən sənayesi, metal emalı və energetikanın ümumi sənaye məhsulunda xüsusi çəkisi 1970-ci ildəki 3,1 faizdən 1980-ci ildə 4,2 faizə qədər artmışdır [6, s.35].

70-ci illərə qədər potensial imkanların mövcud olmasına baxmayaraq muxtar respublikada elektrik enerji istehsalı çox zəif inkişaf etmişdi. 1970-ci ildə burada cəmi 0,5 kvt. saat elektrik enerjisi istehsal edilmişdir ki, bu da iqtisadiyyatın və əhalinin artan tələbatını ödəmək iqtidarında deyildi. 1970-ci ildə Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə İranla birlikdə gücü 22 min kvt. olan Araz Su elektrik stansiyası tikilib istifadəyə verilməsi, 1977-ci ildə Karçevan-Naxçıvan dairəvi elektrik xəttinin işə salınması muxtar respublikanın müntəzəm elektrik enerjisi ilə təmin etməyə imkan verdi [11, 1972, 21 iyul]. 1980-ci ildə muxtar respublikada elektrik enerjisi istehsalı 73,3 mln. kvt. Saata çatdırıldı [12, 28].

Yeri gəlmişkən Heydər Əliyevin Naxçıvan yerli enerji istehsalını genişləndirmək təşəbbüsü 90-cı illərin əvvəllərində muxtar respublikanın Ermənistan tərəfindən nəqliyyat və enerji blokadasına alındığı zaman öz tarixi uzaqgörənliyini bir daha sübut etdi. Bədnam qonşularımız Naxçıvana gələn bütün elektrik xəttlərini kəsdikdən sonra Araz SES muxtar respublikanın yeganə enerji mənbəyi kimi əhalini soyuqdan donmaq, acından ölmək təhlükəsindən xilas etdi.

70-ci illərdə, 80-ci illərin birinci yarısında Naxçıvan MSSR-in ərazisində, sənaye müəssisələrinin yerləşməsində əsaslı dəyişikliklər baş verdi. Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı İliç (İndiki Şərur), Şahbuz və Culfa rayonlarında və şəhər tipli yaşayış məntəqələrində də sənaye müəssisələri tikilməyə başlandı. Əgər 1970-ci ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun 64,2 faizi Naxçıvan şəhəri və Babək rayonunun payına düşürdüsə, 1980-ci ildə onların xüsusi çəkisi 44 faizə düşdü. Şərur, Culfa, Ordubad, Şahbuz rayonlarının isə sənaye məhsulu istehsalında xüsusi çəkisi xeyli artdı.

70-ci illərdə Naxçıvan MSSR sənayesinin inkişafının mühüm cəhəti yüngül və yeyinti sahələrinin artımı təşkil edirdi. 1980-ci ildə bu iki sənaye sahəsinin payına muxtar respublikadakı bütün sənaye məhsulunun 90 faizi düşürdü. Bir sıra yeyinti və yüngül sənaye məhsllarının istehsalına görə muxtar respublika Azərbaycanda mühüm yer tuturdu.

1971-1980-ci illərdə muxtar respublika sənayesinin ayrı-ayrı sahələrində əldə edilmiş uğurlar sənayenin bütövlükdə inkişafı üçün əsas oldu. Həmin dövrdə ümumi sənaye məhsulunun istehsalı 261 faiz artdı. Sənaye istehsalının orta illik həcmi isə 7,9 faiz təşkil etmişdir [8, s.12].

Azərbaycan rəhbərliyinin qayğı və diqqət sayəsində 70-ci illərdə muxtar respublikada nəqliyyatın və rabitənin inkişafında mühüm uğurlar əldə edildi. Məsələn, 1970-ci illə müqayisədə 1980-cı ildə nəqliyyatın bütün növlərinin yük dövriyyəsi 256 faiz, yük daşımaları 225 faiz, sərnişin dövriyyəsi 211 faiz artmışdı. Rabitə müəssisələrinin 1980-ci ildə gəlirləri 1970-ci ilin göstəricilərindən iki dəfə çox idi [8, s.58].

İqtisadiyyatın digər sahələrinin inkişafında, xalqın həyat səviyyəsinin yüksəldilməsində əsaslı tikintinin mühüm rol oynadığını nəzərə alan Heydər Əliyev Azərbaycanda, o cümlədən Naxçıvan MR-da bu sahənin inkişafına xüsusi diqqət göstərirdi. Heydər Əliyev muxtar respublika rəhbərliyindən Naxçıvanda yaxşı tikinti bazası inkişaf etmiş tikinti sənayesi yaratmağı əsaslı tikintinin bütün problemləri ilə dərindən və operativ məşğul olmağı tələb edirdi.

O, Naxçıvana gələrkən sənaye müəssisələrinin tikintisi ilə birbaşa vəziyyətlə yerində tanış olmağı, necə deyərlər ilkin mənbədən məlumat almağa üstünlük verirdi. 1978-ci ilin oktyabrında alt trikotaj fabrikinin tikintisnə gedərək müəssisənin baş korpusunun, məişət binalarının, digər obyektlərin tikildiyi sahələrə baxmış, tikinti işlərinin sürətinin və keyfiyyətinin aşağı olması barəsində bir sıra məntiqi mülahizələrini söyləmişdir. Yaxın vaxtlarda fabrikin yaxınlıqlarında xalça kombinatı tikintisinin başlan-

ması ilə əlaqədar olaraq, o bu rayonda yaşayış massivi, mədəni-məişət obyektlərini yaratmaq vəzifəsini qarşıya qoymuşdur. Sonra o, Şüşə qablar zavodunun tikintisində olmuş, inşaat fəhlələri ilə söhbət edərək onların əmək, həyat, məişət şəraiti ilə, ərzaq məhsulları və sənaye məhsulları ilə təchizatının təşkili ilə maraqlanmışdı. Heydər Əliyev o zaman mineral sular zavodunun tikintisi ilə də tanış olmuş və tövsiyyələrini vermişdi [11, 1978, 18 oktyabr].

70-ci illərdə Heydər Əliyevin Naxçıvan MSSR-də əsaslı tikintini yaxşılaşdırmaq və genişləndirmək sahəsində səyləri öz müsbət nəticələrini göstərdi. Əsaslı tikintinin maddi-texniki bazası gücləndirilmiş, əmək məhsuldarlığı artmış, tikinti-quraşdırma işlərinin həcmi yüksəlmişdi.

Bütün bunlar muxtar respublika iqtisadiyyatının dinamik inkişafında əsaslı tikintinin rolunun güclənməsinə gətirib çıxardı. Ümumilikdə 1970-1985-ci illərdə muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrinə aid 783 milyon manatlıqlı əsas fondlar tikilib istifadəyə verildi.

Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə Naxçıvan MR-in kənd təsərrüfatının inkişafında da əsaslı dönüş baş verdi. 70-ci illərdə respublika rəhbərliyi muxtar respublikanın kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinə, əkinçilik və heyvandarlıq məhsulları istehsalının artırılmasına yönəlmiş bir sıra kompleks tədbirlər həyata keçirdilər.

1970-ci ildən başlayaraq muxtar respublikanın kənd təsərrüfatının planlaşdırılmasında buraxılmış çatışmazlıqların aradan qaldırılması üçün işlər aparılmağa başlandı. Qeyri-rentobelli yüksək maya dəyərinə malik pambıqçılıq Naxçıvan MR-da yüksək məhsuldarlığa malik üzümçülük və tütünçülüklə əvəz edildi. Bu ideyanın əsas təşəbbüskarı məhz Heydər Əliyev oldu. Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində Naxçıvan MSSR kənd təsərrüfatı sahəsində üzümçülük, taxılçılq, meyvəçilik və maldarlıq üzrə ixtisaslaşdırma başlandı [11, 1980, iyun].

Bütün bunlar kənd təsərrüfatı məhsulları istehsalının və əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə artmasına kömək etdi. Muxtar respublikanın kənd təsərrüfatının ümumi məhsulu 1970-ci ildə 19,932 min manatdan, 1980-cı ildə 54,389 min manata qədər, yaxud 3,2 dəfə artmışdı [10, 1982, 6 iyul].

Heydər Əliyev Naxçıvan MK-nı kompleks şəkildə inkişaf etdirilməsinə, bütün rayonların sosial-iqtisadi, mədəni tərəqqisinə çalışırdı. O, muxtar respublikaya səfərlərində təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmır, bütün rayonlara baş çəkərək oradakı problemlər, əhalinin güzaranı ilə maraqlanırdı. Bu baxımdan onun 1980-ci ilin mayında Naxçıvana səfəri xüsusilə diqqətə layiqdir. Səfər müddətində Heydər Əliyev muxtar respublikanın başdan-başa Sədərəkdən Ordubada, Bata-bata qədər gəzmiş, əhali ilə yüzdən çox görüş keçirmişdir. Həmin səfərin əsas məqsədi Naxçıvanın gələcək inkişaf planı hazırlamaq idi. Heydər Əliyev özü ilə bərabər Azərbaycanın bir çox nazirlərini, idarə başçılarını bura gətirmişdi. Vilayət rayon partiya komitələri ilə birgə müzakirələr və təhlillər aparılırdı.

Bütövlükdə Heydər Əliyevin Azərbaycanın rəhbərlik etdiyi 1969-1982-ci illər Naxçıvan MR-ın iqtisadi inkişafında mühüm mərhələni təşkil edir. Həmin illərdə muxtar respublika iqtisadiyyatının bütün sahələrinə ümumilikdə 900 mln. manat sərmayə qoyulmuş, 783 milyon manatlıq əsas fondlar tikilib istifadəyə verilmişdir. Həmin illərdə 21 iri sənaye müəssisəsi tikilmiş və bir neçəsi əsaslı şəraitdə yenidən qurulmuşdu. Muxtar respublikanın imkanlarından səmərəli istifadə olunması hesabına sənaye məhsulunun həcmi 1985-ci ildə 1970-ci ilə nisbtən 4,6 dəfə artmışdı. Azərbaycanın sənaye məhsulu istehsalında Naxçıvan MSSR-ın xüsusi çəkisi 2 dəfədən çox artaraq 1970-ci ildəki 1,1 faizdən, 1985-ci ildə 2,3 faizə çatmışdı [6, s.33].

Çox təssüf ki, 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda əldə edilmiş yüksək sosial-iqtisadi inkişaf səviyyəsi 80-ci illərin ortalarından başlayaraq getdikcə aşağı düşməyə başladı. M.Qorbaçomun «Yenidənqurma» adlanan avanturist siyasəti dövründə bütün ölkədə olduğu kimi Azərbaycanda da əsas göstəricilər aşağı düşməklə bərabər, bəzi göstəricilər hətta mənfi olmuşdur.

Naxçıvan MR-da də sosial-iqtisadi göstəricilərin azalma meyli aydın təzahür etməyə başlamış, 80-ci illərin sonu 90-cı illərin əvvəllərində muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşmüşdür. Bütövlükdə ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci illə müqayisədə 92,6 faiz , 1989-cu ilə nisbətən isə 95,9 faiz olmuşdu [9, s. 30].

Ermənistanın Azərbaycana qarşı 1988-ci ildə başlayan təcavüzü Naxçıvan MR-nın iqtisadiyyatına xüsusilə ağır zərbə vurdu. Muxtar respublikanın Ermənistan tərəfindən nəqliyyat və iqtisadi blokadaya alınması, regionun iqtisadiyatını iflic vəziyyətə salmaqla bərabər, əhalinin acından ölmək təhlükəsi ilə üz-üzə qoydu. Təssüf ki, o zaman hakimiyyətdə olan iqtidarlar Naxçıvanı bu ağır vəziyyətdən çıxarmaq üçün heç bir əməli tədbir görmədilər, Naxçıvan, onun əhalisi sözün əsl mənasında taleyin ümidinə buraxılmışdı. Və tale 1990-cı ildə möhtərəm Heydər Əliyevi Naxçıvana yetirməklə bu qədim torpaqı real iqşal təhlükəsindən hifs etdi. Dahi insanın dövlətçilik təcrübəsi, dönməz iradəsi, sarsılmazlığı və fədakarlığı Naxçıvanı çox böyük fəlakətlərdən qurtardı. Heydər Əliyevin Naxçıvana gəlməsi ilə Naxçıvanın, bütövlükdə Azərbaycanın nicatı yolunda yeni inkişaf mərhələsi başladı.

### *MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT*

1.«Azərbaycan» qəzeti.
2.Azərbaycan KP XXX qurultayının materialları. Bakı, 1981.
3.Azərbaycan Respublikası Prezidenti Administrasiyası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi. (ARPASPİHDA) f.1, s.61, iş 17.
4.ARPASPİHDA, f.1, s.80, iş 177.
5.«Kommunist» qəzeti.
6.Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000.
7.Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi. (NMRDA), f.1, s.3 iş 3.
8.Naxçıvan MSSR xalq təsərrüfatının inkişafı statistik məcmuə. Naxçvan, 1981.
9.Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999.
10.«Sovet Naxçıvanı» qəzeti.
11.«Şərq qapısı» qəzeti.
12.Нахчыванское Автономное Советская Социалистическая Республика Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку, 1984.

**А.Г.ГАСЫМОВ**

## ГЕЙДАР АЛИЕВ И ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ (70-80 гг. XX века)

В статье дана оценка экономическому положению, которое существовало до 1969 года в Нахчыванской Азербайджанской Республике. Проанализированы шаги, предпринятые общенациональным лидером Гейдаром Алиевым по достижению экономического процветания региона. Доказывается, что все успехи, и достигнутые автономной республикой в тот период, были связаны непосредственно с фактором Гейдара Алиева.

**A.G.GASIMOV**

# HEYDAR ALIYEV AND ECONOMIC DEVELOPMENT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (70-80s years)

In the article is reviewed the economic situation till the 1969 year which existed in Nakhchivan AR. The measures taken by the national leader Heydar Aliyev for achievement the economic prosperity of the region are analyzed. It is proved that all successes achieved by autonomous republic during this period have been connected directly with the factor of Heydar Aliyev.

***Rəyçilər: t.e.ü.f.d.İ.Y.Həsənov, t.e.d.A.M.Məmmədov.***

***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycan Respublikasının tarixi» şöbəsinin 14 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №15).***